Yaddaşlarda yaşayanlar

**Biz tələbə olanda... çox şey indiki kimi deyildi. Elə bir istirahət günü olmurdu ki (təbii ki, yay ayları istisna olmaqla), hansısa ədəbi-bədii və ya elmi-kütləvi tədbirdə iştirak etməyək. Mən hələ institutun 1-ci kursunda oxuyanda Bəxtiyar Vahabzadə ilə Müəllimlər evində keçirilən görüşə getmişdim. Çıxışlardan sonra aparıcı soruşdu ki, kimin sualı var? Dedim mənim sualım yox, xahişim var. Hamıya maraqlı gəldi.**

# Bəxtiyar Vahabzadədən iki dəfə irad eşitmişəm

## İkinci irada görə, hətta, mükafatlandırılmışam



Xahişim çox sadə idi. Hələ orta məktəbdə oxuyanda ədəbiyyat müəllimimiz Adilə xanımdan eşitdiyim “Mən “Gülüstan” poemasını Bəxtiyar müəllimin öz səsində eşitmişəm” deməsini həmişə böyük həsədlə xatırlayırdım. İndi elə bildim ki, həmin fürsət əlimə düşüb. Ona görə də xahiş etdim ki, şair “Gülüstan” poemasından bir parçanı öz səsi ilə oxusun. Elə bildim, hamı alqışlayacaq. Ancaq tədbirin aparıcısı da etiraz etdi, şairin özü də. Sonra Bəxtiyar müəllim ayağa qalxaraq dedi ki, məlum faktları nə üçün yada salırsınız? Yeni şeir istəyin, oxuyum. Yeni şeirlərini oxudu.

Aradan iki, ya da üç il keçəndən sonra – yanılmıramsa, 1978-ci il idi – Bayılda, Neftçilərin mədəniyyət sarayında Bəxtiyar Vahabzadənin “Yazıçı” nəşriyyatında yenicə çapdan çıxmış “Sadəlikdə böyüklük” kitabının müzakirəsinə toplaşmışdıq. Tədbiri aparmalı olan adamın ciddi problemi çıxdığına görə həmin məsuliyyətli işi mənə etibar etdilər. Üstəlik, elan olundu ki, İttifaq Bəxtiyar müəllimin dərs demədiyi ali məktəbin tələbələrindəndir. Böyük etimad idi və deyəsən, elə ona görə də “çox göydən getdim”: “ Əziz dostlar, “Müşfiq bulağı” Ədəbi Birliyinin görkəmli yaradıcı ziyalılarla görüşmək ənənəsi davam edir. Bu gün biz sizinlə böyük şairimiz Bəxtiyar Vahabzadənin “Sadəlikdə böyüklük” kitabını müzakirə edəcəyik”.

Şair arı sancmış adam kimi səksəndi: “Dayan!” Dayandım. Əlavə etdi: “Bəxtiyara böyük şair deyirsənsə, Füzuli, Sabir, Səməd Vurğun haqqında danışanda nə deyəcəksən? Böyük şair ifadəsi sizə o qədər də sadə gəlməsin. Füzulini, Sabiri tam oxumasan da, məlum məsələdir ki, Səməd Vurğunun əsərlərini başdan-ayağa oxumayan tələbə yoxdur. Sən Səməd Vurğunun misralarında böyük şair məfhumunun siqlətini görmədinmi?”

Doğrusu, çox pərt olmuşdum. Amma vəziyyətdən çıxmaq lazım idi. Həmin çıxış xəttini də Bəxtiyar müəllimin özü istiqamətləndirdi: “Sən Bəxtiyar haqqında danışanda “alim-şair”, “sətirlərində lirika ilə fəlsəfə yanaşı addımlayan şair” deyə bilərsən. Yoxsa, başlamısan”böyük şair”...

“Bəli” – deyərək, səsimi bir az da ucaltdım və sanki, şüar səsləndirirmiş kimi fikrimi davam etdirdim:

***Bizim sənət dünyamızın***
***qırıq telli sazıyam,***
***Bircə ondan razıyam ki,***
***özümdən narazıyam!***

– deyən təvazökar şairimizn yaradıcılığı barədə eşitmək və ya onun haqqında danışmaq istəyən ədəbiyyatsevərlərə eşq olsun!

Həmin anda ağuşuna düşdüyüm xoşbəxtliyin qürurunu bu gün də eyni şəkildə yaşayıram. Bəxtiyar Vahabzadə əl çalmağa başladı və zaldakıların hamısı ona qoşuldu.

... Üç gün sonra eşitdim ki, mədəniyyət sarayının rəhbərliyi mənə 30 manat mükafat yazıb. Bədii rəhbər zarafatla dedi ki, bu 30 manat “böyük şair”in qarşısında pərt olmağın mükafatıdır.

***İ.QAÇAYEV***
***XQ***